(Müsahibə)

# Qərib Mehdi dedi ki...



**– Qərib müəllim, 2023-cü ilin iki ayını arxada qoyduq. Artıq yazın ətrini duymaqdayıq. 2022-ci il hansı əlamətdar nəsnələrlə yaddaşınıza həkk olundu?**

– Yaradıcı adamların işini plansız təsərrüfatla müqayisə etmək olar. İl var bəhrəli olur, il də var ki, «maya dəyəri»ni ödəmir. Keçən il əvvəlki illərlə müqayisədə yeni yazılarım az oldu. Amma bunun əvəzini başqa bir məhsulumla ödədim. Mən indi həyatda olmayan, xeyli sayda müxtəlif sahələri təmsil edən sənət adamları ilə ünsiyyətdə olmuşam. Yaddaşımda onlarla bağlı maraqlı hadisələr vardı. Bu hadisələri yaddaşımdan kağıza endirdim. Nəticədə, irihəcmli bir kitab alındı: adı da «Xatırla ki, yaşayım». Bu kitabda 50 sənətçidən (yazıçıdan, musiqiçidən, aktyordan, rəssamdan və s.) söz açılır. Onlardan 25-i Bakı mühitinə, 25-i isə Gəncə mühitinə məxsusdur. Maraqlı rəqəm alındı: 50 sənətçidən söz açdığım kitab sayca 50-ci kitabım oldu. Dünyasını dəyişmiş qəhrəmanlarımın varisləri bu kitabı əldə etsələr (kitabda kimlərin təmsil olması barədə sosial şəbəkədə məlumat vermişəm), yaxşı olar. Hələ ki, çağırışıma varislərdən yalnız bir nəfər – böyük şairimiz Məmməd Arazın kürəkəni – yazıçı, millət vəkili Aqil Abbas  hay verib. Təəccüblənirəmg Təəssüflənirəm. Əvəzində xeyli sayda oxucu  «Xatırla ki, yaşayım» kitabını əldə edib.

**– Həmişə martda təntənə ilə qeyd etdiyimiz bayramımızı necə adlandırsaq düzgün olar? «Bahar», yoxsa «Novruz?».**

– Ənənədən gələn olaya ad qoymaq millətin, onu dəyişdirmək hakimiyyətdə olan siyasi liderlərin işidir. Türk-müsəlman dünyasının ən azı Turan adlı ərazisi var. Bu coğrafi məkanı tamamlayan böyük etnosun da milli bayramı var. Bu bayramın adı «Novruz – Yeni gün»dür. İmperiyalar əsarətdə saxladıqları xalqları parçaladığı kimi, onların bütövlüyünü şərtləndirən adət-ənənələrini də parçalamağa çalışıblar. Belə olanda özünüdərk ləngiyir, idarəetmə isə asanlaşır. Bu səbəbdən də gah «Novruz»un adını qadağan edib, gah da dəyişib müxtəlif adlar qoyublar. «Bahar» adı da bu qəbildəndir.

Bəzi təqvimlər böyük şəxsiyyətlərin adları ilə şərtlənir. Təbiət də öz səlahiyyətindən istifadə edir. İlin bütövlüyü dörd fəslə: yaza, yaya, payıza və qışa bağlanır. Qış tamamlayıcı fəsildir. Yaz isə bütün atributlarına, hətta ədalətli vaxt bölgüsünə – gecə ilə gündüzün bərabərliyinə görə oyanış, başlanğıc fəslidir. Yeni fəslin «Novruz» adı ilə bayram edilməsinə gəldikdə, Əliağa Vahidin təbirincə desək, «təbiət özü buna icazə verib».

**– Qərib müəllim, bürclərə münasibətiniz? Siz hansı bürcdənsiniz? Bürclərin təsirini həyatınızda hiss edirsinizmi?**

– Mən «Əkizlər» bürcündənəm. İyunun 21-də, ilin ən uzun gündüzündə dünyaya gəlmişəm. Bürc anlayışlarına, onların xasiyyətlərinə, insan həyatına təsirlərinə o qədər də əhəmiyyət vermirəm. Daha doğrusu, Böyük Yaradıcının – Tanrının işinə qarışmıram. Taxtı daha da uca olsun, nə veribsə, qəbulumdur.

**– 2023-cü il Türk dünyası üçün fəlakətlərlə başladı. Öncə İran adlanan məmləkətdə səfirliyimizə qarşı törədilmiş terror aktı, arxasınca türklər yaşayan ərazidə zəlzələ baş verdi. Sonra isə can qardaşımız olan Türkiyədə dağıdıcı zəlzələlərg Bu acı hadisələr nədən xəbər verir?**

– Təəssüf ki, bəzən yer altından başlanan soyqırımlar (çiçəkdən tutmuş böcəyə, heyvandan tutmuş insana qədər) yer üstündə müşayiət olunan terrorlarla «işbirliyi» ilə uğraşırlar. Bu birliklər dinc xalqların iradəsini imtahana çəkir. Türklər itki verər, ancaq tamam itməz. Tarix dəfələrlə belə hadisələrin şahidi olub. Hamilə ana kəskin sancılardan sonra həyata yeni insan gətirir. Ana Vətən həmişə yeni igidlərin doğulması ilə yaralarını sağaldır. Bu dəfə də belə olacaq.

**– Azərbaycan türklərinin taleyi heç də həmişə gülərüzlü olmayıb. Gah güclənib başqa xalqları da içimizə alıb ədalətli qanunlarla tənzimlənən imperiyalar yaratmışıq, gah da özümüzdən güclü imperiyalara yenilib, parçalanıb, onların tərkibinə qatılmışıq. Şükürlər olsun ki, indi tarixi ərazilərimizin məlum hissəsində müstəqil Azərbaycan dövləti qurmuşuq. Həmişəlik ayaqda durmaq üçün hansı səmtə getməliyik? Və ya hara gedirik? Şimala, Cənuba, Şərqə, yoxsa Qərbə?**

– Belə bir sorğu ilə qüdrətli şairimiz Aydın Murovdağlı da mənə müraciət etmişdir. Lakin o, sualını şeir şəklində təqdim etmişdir. Xatırladıram:

Daş dövründən çağırıram: – Söz Dədəmiz Qərib, hey!..

Dünya dərdi-sərini yaddaşına sərib, hey!..

Başındakı papağa hər gün salam verib, hey!..

Varıb hara gedirik?

Nə sirdi, gecə-gündüz səni Uca Allahdan

Sorub, hara gedirik?

Qərib, hara gedirik?..

Mən hələ Aydının sualına cavab verməmişəm. Ağır sualdır, növbənizi gözləyin.

**– Yazıçılar hövsələli, jurnalistlər isə hövsələsiz olurlar. Xahiş edirəm, məni qabağa salasınız.**

– Rica edirəm, məni çətinə salmayasınız.

**– Yenə olsun...**

– Yaxşı. Ancaq bilmirəm, cavabım sizi razı salacaqmı?

**– İnşallah, salar...**

– Özünəqapalı toplumlar, ya dövlətlər inkişafdan qalır. Monqollar kimi sonuncu dənizə doğru çapanlar əriyib yoxa çıxmaq təhlükəsi ilə üzləşirlər. Sivil dünyaya açılmaq, özünəqayıdışı unutmamaq şərtilə mütərəqqi yeniliyi qəbul etmək lazımdır. Geri dönməyin əhəmiyyətini Bilgə Xaqan havayıdan deməmişdir: «Ey türk, özünə qayıt! Sən özünə qayıdanda böyük olursan!». Planetlər də bu qanuni cazibəyə tabedir. Günəş yenidən doğulmaq üçün qüruba enir. Biz birdəfəlik heç yana getməməliyik. Özümüzdən çıxıb, yenidən özümüzə qayıtmalıyıq. Bu hal Günəş ömrü yaşamaq deməkdir.

**– Oxucularımıza tövsiyəniz?**

– «Oxu!» Bu söz Məhəmmədə peyğəmbərlik veriləndə deyilən ilk Tanrı kəlamıdır. Məsləhət vermək çətin işdir. Oxucularıma Tanrı tərəfindən gələcək peyğəmbərimizə deyilən «Oxu!» sözünü təkrarlamaqla kifayətlənərdim. Çörək ağızın, oxumaq beynin qidasıdır. Beyin qidalanmasa, ağız çörəksiz qalar. O cümlədən elmimiz, ədəbiyyatımız da şikəst olar.

*Yazıçı Qərib MEHDİ ilə müsahibəni apardı publisist, Azərbaycan Jurnalistlər Birliyinin üzvü*

**İlqar MÜZƏFFƏROĞLU**



Türküstan.- 2023.- 14-27 mart.- S.6.